

# İlham Əliyevin növbəti Zəfəri

## Müzəffər Ali Baş Komandan bir güllə atılmadan, qan tökülmədən Qazaxın 4 kəndini də Ermənistandan aldı

**44 günə Qarabağ və Şərqi Zəngəzuru, Şanlı Zəfərdən sonra bir güllə atmadan Ağdam, Kəlbəcər və Laçını, 23 saata Xankəndi və Xocalını düşmən tapdağından təmizləyib 200 illik erməni xülyasını məhv edən Müzəffər Ali Baş Komandan İlham Əliyev dünən daha bir möhtəşəm diplomatik uğura imza atdı.**

Belə ki, Qazax rayonunun 4 kəndi Azərbaycana qaytarılır. Bu barədə iki ölkə arasında sərhəddə Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Respublikası Baş nazirinin müavini Mqer Qriqoryanın sədrliyi ilə sərhədlərin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın səkkizinci görüşündə razılığa gəlindi.

Bununla bağlı yayılan məlumatda qeyd edilir ki, delimitasiya prosesinin ilkin mərhələsində tərəflər sərhəd xəttinin ayrı-ayrı hissələrinin Sovet İttifaqı çərçivəsində onun süqutu dövrünə mövcud olduğu hüquqi cəhətdən əsaslandırılmış respublikalararası sərhədə uyğun olaraq Bağanis (ER) - Bağanıs Ayrım (AR), Voskepar (ER) - Aşağı Əskipara (AR), Kirants (ER) - Xeyrımlı (AR) və Berkaber (ER) - Qızılhacılı (AR) yaşayış məntəqələri arasında bilavasitə keçməsini razılaşdırıblar. Həmçinin qərara alınıb ki, sərhəd xəttinin bu hissələrinin təsviri koordinatları yerdəki geodeziya ölçmələrinə əsaslanaraq dəqiqləşdirilməsi nəzərə alınmaqla tərtib edilsin və bu, tərəflər arasında 15 may 2024-cü il müddətinədək müvafiq Protokol-təsvirlə sənədləşdirilərək razılaşdırılmalı və imzalanmalıdır.

Tərəflər razılaşıblar ki, onlar delimitasiya prosesində 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanacaqlar. Tərəflər, həmçinin həmin baza prinsipini Əsasnamə layihəsində təsbit etmək barədə razılığa gəliblər (əgər gələcəkdə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişdə başqa cür qərara gəlinərsə, o zaman Əsasnamənin müvafiq bəndi bu Sazişlə müəyyənləşdirilmiş prinsiplərə uyğunlaşdırılacaq).

Ümumiyyətlə, İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra Azərbaycan bu günədək sülh danışıqları təşəbbüsü ilə çıxış edib. Qalib komandan kimi İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycan sülh prosesinə sadiqdir. Lakin regionda sabitliyin təminatını istəməyən, bölgənin yenidən savaş meydanına çevrilməsi üçün çalışan qüvvələr Ermənistana havadarlıq edərək məğlub ölkəni Azərbaycanla sülhdən yayındırmağa çalışırlar. Son proseslər də bunu bir daha təsdiqləyir.

Lakin nəyi nə zaman edəcəyini çox yaxşı bilən İlham Əliyev uzaqgörən qərarları, prinsipiallığı və qətiyyətli siyasəti ilə hər zaman həmin qüvvələrə layiqli cavab verib və qəti şəkildə bəyan edib ki, kimsə Azərbaycanla hədə-qorxu dili ilə danışa bilməz.

Prezident İlham Əliyev həmçinin dəfələrlə vurğulayıb ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması üçün vasitəçiyə ehtiyac yoxdur. Regionun müqəddəratını iki ölkə arasında imzalanacaq sülh müqaviləsi təyin edə bilər.

Elə son hadisələr də göstərdi ki, Azərbaycanla Ermənistan arasına girməyə çalışan qüvvələr yalnız sülh prosesinə maneə yaratmaq üçün çalışırlar. İki ölkə arasında barışın əldə olunması onları qətiyyən marqlandırmır. ABŞ, Ermənistan və Avropa İttifaqının 5 aprel Brüssel görüşündəki razılaşmalar bunu təsdiqləyən reallıqdır. Fransa və ABŞ Ermənistanı yenidən silahlandırmaqla Cənubi Qafqazı münaqişə ocağına çevirməyə can atırlar.

4 qeyri-anklav kəndin bir güllə atılmadan, qan tökülmədən Azərbaycana qaytarılması isə ilk növbədə İlham Əliyevin növbəti qələbəsidir. 44 günlük müharibədə Zəfər, 2023-cü ilin sentyabrında suverenliyin tam bərpası, rusiyalı sülhməramlıların bölgədən çıxmasından sonra 4 qeyri-anklav kəndin qaytarılması Azərbaycan torpaqlarını addım-addım, qarış-qarış toplayan Müzəffər Ali Baş Komandanın xalqa növbəti hədiyyəsi və müjdəsidir.

Xatırladaq ki, İlham Əliyev qeyri-anklav kəndlərin qaytarılması məsələsini 2020-ci ildən qaldırmışdı və bu müddət ərzində mövzu daim gündəlikdə saxlanılırdı, bu istiqamətdə ardıcıl iş aparılırdı.

Əldə olunmuş bu razılıq delimitasiya istiqamətində atılan ilk addımdır. Delimitasiyanın məhz bu istiqamətdən başlaması Azərbaycanın təkidi ilə oldu.

Bütün bunlar isə regionu yenidən qan çanağına çevirmək istəyən və bunun üçün Azərbaycana şər ataraq guya ölkəmizin Ermənistana hücum etməyə hazırlaşdığını bildirən Fransa və digər Qərb dövlətlərinin təxribatlarını bir daha ifşa etdi. Azərbaycan ABŞ və Aİ-nin bu məsələlərə müdaxiləsinə imkan vermədi, Ermənistan və Azərbaycan birgə qarşılıqlı anlaşma şəraitində dil tapıb məsələni həll etdilər.

Ona görə də bəzi Qərb dövlətləri və neoimperialist dairələr nə qədər proseslərdən uzaq dayansalar, Cənubi Qafqazda sülh və əmin-amanlıq o qədər tez təmin olunar.

Bir sözlə, bütün proseslər göstərir ki, İlham Əliyevin sülh gündəliyi regiona yalnız təhlükəsizlik, inkişaf vəd edir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 20 aprel, № 79.- S.5.